***Qəzetimizin hörmətli oxucuları və abunəçiləri!***

***Bu il «Vışka» qəzetinin nəşr edilməyə başlanmasının 95 ili tamam oldu. Onun oxucuları içərisində yaşı 80-i, 90-u ötüb yüzə gedənlərin sayı yəqin ki, çoxdur. Arzu edirəm ki, qəzetimizin yüzillik yubileyini hamımız birlikdə sağlam və şərəflə qeyd edək.***




# LƏYAQƏT

*Mənim üçün ən müqəddəs, danılmayan həqiqət,*
*İnsanlığın meyarı ləyaqətdir, ləyaqət.*

**Sonu. Əvvəlinə bax №33**

General öz növbəsində evin gözətçisinə tapşırır ki, Sergey Petroviç bu günlərdə bizə gələndə onu ilk əvvəl mənim yanıma gətir, nişanlısının yanına sonra gedər. Belə də olur, bir neçə gündən sonra Sergey Petroviç həbsdən azad olub, özünü tələsik nişanlısına yetirmək istəyir. Lakin ev gözətçisinin xahişinə görə o, generalın otağına gəlib, nəzakətlə salam verib, başına gələnləri qısa ona söyləyir. General zabitə diqqətlə qulaq asandan sonra ona belə deyir: «Biz səninlə artıq qohum ola bilməyəcəyik. Sənin zabit ləyaqətin tapdanıb. Sən öz ləyaqətini qorumaq üçün səni təhqir edəni gərək duelə çağırasan. Bunu etmək isə sənə çətin olacaq, çünki sən imperatorun fərmanı ilə həbs edilmisən. Düzdür, sən azad edilmisən, amma məhkəmə sənin günahsız olmağın barədə səndən üzr istəməyib. Get zabit, zadəgan ləyaqətini bərpa elə. Əks təqdirdə mən ləyaqətsiz adamla qohum ola bilmərəm».

Söhbət bununla bitir, zabit durub gedir. Tarixdə «dekabristlər» adı ilə məlum olan üsyançıların məhkəməsi başlanır. Məhkəmənin tam ədalətli keçməsi və təqsiri olmayanların ləyaqətinin qorunması, onların hüquqlarının bərpası məqsədilə onun işində ilk iclasdan I Nikolay özü iştirak edir. Hərəkatın başlayaraq axıra kimi təşkilatçıları olan və tarixə «dekabristlər» adı ilə düşən beş nəfərlə (yazıçı Rıleyev, Pestel, S.Muravyov-Apostol, Bestujev və Kaxovski) bərabər 579 nəfərin (o cümlədən 120 nəfər zabit və əsgərin) məhkəməsində özü şəxsən onlarla söhbət edib, hakimiyyətdən olan narazılıqların əsl səbəbini aydınlaşdırmaq istəyir. İmperator Rıleyevə müraciət etdikdə o qeyri-ixtiyari olaraq ağlayır. Bunu görən I Nikolay ona deyir: «Kişi də ölümündən qorxub ağlayarmı? Hanı bəs sənin zadəgan ləyaqətin?» Rıleyev gözünün yaşını silib deyir: «Mən ölümdən qorxduğum üçün ağlamıram. Mən 5 yaşlı günahsız qızımın və heç bir maddi köməyi, yaxın qohum-əqrəbası olmayan arvadımın taleyi üçün ağlayıram. Onlar xalq düşməninin ailə üzvləri kimi ömürləri boyu təqib edilərək, ehtiyac içərisində yaşayacaqlar». İmperator ona deyir: «Bəs dövləti devirib, bizi, bizim uşaqlarımızı, qohumlarımızı məhv etmək istəmirdiniz? Yəqin ki, siz bizi daha ağır cəzalarla cəzalandıracaqdınız». Sonra maliyyə nazirini məhkəməyə dəvət edib ona göstəriş verib deyir: «Rıleyevin arvadına bir dəfəlik 20 min manat yardım edin. Qızını Sankt-Peterburqun qızlar gimnaziyasına qoyun, təhsil alsın. Onun ali məktədə daxil olub, oranı bitirməsinə xüsusi nəzarət və qayğı göstərməklə, bütün xərcləri dövlətin hesabına ödəyin».

Məhkəmə üsyanın başçılarına şaqqalanmaqla ölüm hökmü verir. Lakin, imperator hakimdən xahiş edir ki, bu dəhşətli ölüm hökmü dar ağacı ilə edam etmək hökmü ilə əvəz edilsin. Bu, o vaxtlar üçün humanist bir addım kimi qiymətləndirildi və bundan sonra Rusiyada şaqqalanmaq hökmü ləğv edildi. Üsyançıların əksəriyyəti, o cümlədən S.P.Zaqorski də əfv edilənlər içərisində oldu.

Üsyanın yatırılması və onun təşkilatçılarının cəzalandırılması, haqq-ədalətin bərpası və I Nikolayın taxta çıxması münasibətilə Sankt-Peterburqda bayram paradı keçirilirdi. Bütün hərbi hissələr imperatorun qarşısından keçib ona hərbi salam verirdilər. Növbə kapitan S.P.Zaqorskinin süvari alayına çatdı. O imperatorun qənşərinə çatanda I Nikolay əli ilə onun ayaq saxlamasına işarə edir. S.P.Zaqorski atının ovxarlı cilovunu çəkib saxlayır və şahı salamlayır. İmperator atdan enib S.P.Zaqorskiyə yaxınlaşıb bütün parad iştirakçıları qarşısında ucadan bu sözləri deyir: «Mən, bütün parad iştirakçıları qarşısında, Romanovlar sülaləsi adından sizdən üzr istəyirəm. Mən sizi nahaq yerə həbs etdirib, zabit ləyaqətinizə ləkə gətirmişəm. İndi hamının qarşısında Sizdən üzr istəyirəm, məni bağışlayın». İmperatorun bu hərəkətindən hamı heyrətə gəlir. Çarın bu alicənablığına, bu humanistliyinə bütün parad iştirakçıları heyran qalır.

S.P.Zaqorski axşam evə qayıdanda yazı masasının üstündə iki zərf görür. Biri imperatorun qardaşı, ordu generalı Mixail Romanovdan idi. O yazırdı: «Qardaşımın sizə vurduğu mənəvi sarsıntıya görə nə ödəniş istəyirsinizsə, rica edirəm, bildirin».

Sevgilisinin atasından olan ikinci məktubda isə bu sözlər yazılmışdı: «Raradda hər şeyin şahidi oldum. Toyun vaxtını təyin edə bilərsiniz».

Bu yerdə məşhur Azərbaycan filosofu, rus ordusunun yüksək rütbəli tanınmış zabitlərindən olan Abbasqulu Ağa Bakıxanovla baş vermiş bir tarixi hadisəni yada salmaq yerinə düşərdi. Tarixi mənbələrdən, dövri mətbuatdan oxuduğum mötəbər yazılarda bildirilir ki, 1834-cü ildə Rusiyanın Polşada hərbi təmsilçisi işləyən polkovnik rütbəsində olan Abbasqulu Ağa Bakıxanov vətənə qayıdarkən onu Sankt-Peterburqda imperator I Nikolayın generallarının şərəfinə təşkil etdirdiyi ziyafətə dəvət edirlər. Abbasqulu Ağanın polkovnik rütbəsində olmasına baxmayaraq, o, bu ziyafətə imperatorun xüsusi dəvəti ilə gəlir. Ziyafətdə iştirak edən tanınmış generallar öz xanımları ilə birlikdə imperatora yaxınlaşır, xanımının şərəfinə badə qaldırıb içirmişlər. Abbasqulu Ağa imperatorla görüşəndə məclisə xidmət edən zabit əlində içərisində üç dolu badə qoyulmuş podnosla onlara yaxınlaşır. İmperator I Nikolay və xanımı badələri götürüb Abbasqulu Ağaya badəni qaldırmağı təklif edirlər. Abbasqulu Ağa badəni qaldırmayaraq, böyük ehtiramla imperatora deyir: «Əlahəzrət, Allah Sizdən böyükdür, ucadır. O, içməyi mənə qadağan etmişdir. Mən onun əmrindən çıxa bilmərəm». İmperator azərbaycanlı zabitin cəsarətinə, səmimiyyətinə, inamına, imanının dönməzliyinə heyran qalır və deyir: «Mən sizin cəsarətinizin və kişiliyinizin sağlığına badə qaldırıram». Ziyafətdə iştirak edən yüksək rütbəli zabitlər imperatorun bu alicənablığını, Qafqazlı zabitin cəsarətli hərəkətini sürəkli alqışlayırlar.



Bax, buna deyərəm əsl zadəgan, zabit, cəsarətli kişi ləyaqəti. Sənə min rəhmət, Abbasqulu Ağa, sənə layiq olduğun general rütbəsini vermədilər. Amma sən o ziyafətdə olan generalların hamısından müdrik, hamısından cəsarətli, hamısından daha çox əqidənə sadiq olduğunu göstərdin, xalqının gözündə ucaldın.

Bu hadisədən iki əsrə yaxın vaxt keçib. Ötən bu müddətdə insanlar necə dəyişib...

Yetmiş il hökm sürən sovet quruluşu, 37-ci il qırğınları insanlarda olan mərdliyi, kişiliyi, qeyrəti, ləyaqəti öldürüb, əvəzində mütilik, riyakarlıq, qorxaqlıq, yaltaqlıq, bir sözlə, ləyaqətsizlik tərbiyə etdi. Odur ki, indi pul, vəzifə, şöhrət insanların qəlbinə, düşüncəsinə, mənliyinə, mənəviyyatına hakim kəsilib, ləyaqət yaddan çıxıb. Ayrı-ayrı adamların ləyaqətli olması hələ bütün xalqın ləyaqətli olması deyil. Çalışmaq lazımdır ki, ləyaqət anlayışı məktəblərdə birinci sinifdən verilsin. Onda bəlkə 20-30 ildən sonra ləyaqətli cəmiyyət qurmuş olarıq.

Bəli, bu, təqribən 200 il bundan öncə baş vermiş tarixi hadisə, insanlıq nümunəsi, zadəgan, zabit ləyaqəti, imperator mərhəməti, alicənablığı, humanistliyidir. 70 il şahların, imperatorların, Romanovlar sülaləsinin ünvanına deyilmiş nə qədər böhtanlar, təhqirlər, nalayiq sözlər, nahaq ittihamlar eşitmədik? Mələk qiyafəsində, ellər atası simasında göstərilən, uşaqlara «mehriban baba» kimi tərbiyə edilən Leninin qəddarlığı, insani hərəkətlərdən uzaq olan əməlləri yada düşdükdə sosialist quruluşuna, onun qurucularına adam nifrət edir. I Nikolayın etdiyi alicənablığı Lenin, Stalin, Beriya, Mikoyan və başqa qansızlar, cəlladlar edərdilərmi? Bir nəfər günahsız zabitin 2-3 gün nahaq yerə həbs edilməsinə, ləyaqətinə toxunulduğuna görə imperator xalq qarşısında ondan üzr istəyir. Lenin, Stalin və onların minlərlə əlaltıları milyonlarla günahsız insanların qanını töküb, heç «uf» da demədilər, əksinə, özlərini xalqın atası, rəhbəri kimi qələmə verdilər. Ləyaqətsizlər, şərəfsizlər, qatillər, cəlladlar! Leninin göstərişi ilə imperator II Nikolayın ailəsi, şəxsi həkimi, aşpazı (cəmi 17 nəfər) Sibirdə vəhşicəsinə güllələbaran edilib, proletar soldatlarının süngülərinə keçirildilər, sonra isə izi itirmək üçün qatı sulfat turşusu çəlləklərinə atılaraq cəsədləri əridilib, yox etdirildilər.

Şaqqalamaqla edam etməyi qadağan edən I Nikolayın səltənətinin davamçısı II Nikolayın taleyi görün, inqilabçıların vəhşi əməli ilə necə sona çatdırıldı. Bəs, Leninin bilavasitə köməkliyi ilə ermənilərin 1918-ci ilin martında Azərbaycanda törətdikləri qırğınlar? İnqilab bayrağı altında daşnak Stepan Şaumyanın, Amazasrın, Lalayanın, Andraniklərin törətdikləri qırğınlar, vəhşiliklər? İmperatorun yazıçı Rıleyevin ailəsinə olan mərhəməti, qayğısı, diqqəti ilə bolşevik cəlladlarının törətdikləri cinayətlər, gətirdikləri fəlakətləri, bədbəxtlikləri nəinki müqayisə etmək, heç bir araya qoymaq belə olmaz.

İki yüz il müddətində bolşevik-daşnaq birliyinin öz havadarlarına arxalanaraq başımıza gətirdiyi zillətlər mənfur, riyakar qonşularımız qarşısında bizi gözü kölgəli etmişdi, öz mənafeləri xətrinə min bir dona girən, böyük dövlətlərə yaltaqlıq edərək az qala onların ayağını öpən riyakar ermənilərin lazımi cavabını verə bilməmişdik. 2020-ci ilin sentyabrın 27-sindən başlayan əlahəzrət Ali Baş Komandanımız İlham Əliyevin zəfər yürüşü xalqımızın 30 ilə yaxın gözlədiyi haqqın, ədalətin bərpa günü 44 gündən sonra həyata keçdi. 21-ci əsrin ən möhtəşəm, ən əlamətdar döyüş qabiliyyətini rəşadətli Azərbaycan ordusu öz strategiya və taktikası ilə göstərdi. Mənfur düşmənimizin başı dəmir yumruqla əzildi. Azərbaycan xalqının ləyaqəti bütün dünyaya sübut olundu. Bu 3 ildə məğlub olmuş mənfur düşmənimiz bizdən üzr istəmək, təslim aktında imza atdıqları müddəaları yerinə yetirmək əvəzinə, min bir dona girərək ləyaqətsiz hərəkətləri ilə intiqam almağa çalışır. Amma rəşadətli, şücaətli, qüdrətli, cəsarətli Azərbaycan oğulları düşmənin arzusunu ürəyində qoyacaq, əminəm ki, bu dəfə 44 günə yox, 11 günə düşmənimizi darmadağın edəcəkdir. İnşallah!

Yaşasın Azərbaycan xalqı və onun ölümün gözünə dik baxan rəşadətli oğulları!

***Qəzənfər ƏLİOĞLU.***